# İCTİMAİ EKOLOGİYA VƏ SAĞLAMLIQ PROBLEMLƏRİ

**Nigar Məmmədova**

*Hava Nəqliyyatında Baş Gömrük İdarəsi, Bakı*
*nigar.memmedova@customs.gov.az*

Müasir dövrün qlobal problemləri içərisində təbiətlə insan və cəmiyyət arasındakı çoxsahəli qarşılıqlı münasibətlər xüsusi yer tutur. Bəşəriyyət öz varlığına görə təbiətə borcludur. İnsan meydana gəldiyi ilk gündən başlayaraq təbiəti öyrənir və mənimsəyir. İnsanın təbiətin kortəbii qüvvələrinin təsirindən çıxması, tədricən təbiətdən asılılığının azalması, nəticə etibarı ilə onun təbiət üzərində hökmranlığını möhkəmləndirir. Dəyişdirilmiş insan mənafeyinə uyğunlaşdırılmış təbiət onun gələcək inkişafı üçün həlledici şərtdir.

Son dövrlərdə müxtəlif tikintilərin aparılması, təbii qazın şəhər və kəndlərə az verilməsi meşələrin qırılmasına, təbiətin ahəngdar ritminin pozulmasına səbəb olmuşdur. Lakin meşələr bizim hamımızın sərvəti, ana təbiətimizin bir hissəsidir. Böyük şairimiz Molla Pənah Vaqif "Kür qırağının seyrangahını", yəqin ki, meşələrsiz təsəvvür etməmişdir.

XX əsrin ortalarından başlayaraq ekoloji böhran, ekoloji təhlükə haqqında xəbərlər tez-tez eşidilməyə başlandı. Doğrudur, keçmişdə də bəşəriyyət təbii böhranlarla qarşılaşmışdır. Lakin bu böhranları kortəbii qüvvələr - zəlzələ, sel, quraqlıq və s. doğurur, təbiətin özü isə tənzimləyirdi. Müasir ekoloji problemlər isə bilavasitə insanların fəaliyyətinin nəticəsi kimi meydana çıxır. Dünyada mövcud olan ekoloji problemlərin təzahürü aşağıdakı istiqamətlərdə gedir:

1. İnsanların laqeydliyi nəticəsində ətraf mühitin çirklənməsi
2. Bəşəriyyətdə mövcud olan ehtiyatların tükənməsi
3. Xüsusi ilə bir çox ölkələrdə başlıca problem mənbəyi olan əhali çoxluğu.

Respublikamızda ekoloji problemlərin həll edilməsi istiqamətində Ulu Öndər Heydər Əliyevin rolu danılmazdır. Ulu Öndər Heydər Əliyevin fəaliyyəti dövründə ətraf mühitin mühafizəsi ilə əlaqədar prioritet tədbirlər görülmüşdür və hər zaman ölkə ərazisindəki ekoloji vəziyyət diqqət mərkəzində olmuşdur. Ətraf mühitin mühafizəsi, ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, təbii sərvətlərdən səmərəli istifadə Ulu Öndərin həyata keçirdiyi prioritet istiqamətlər sırasında olmuşdur.

Ümummilli Liderimiz Heydər Əliyev uzaqgörən siyasətinin nəticəsi etibari ilə hələ o dövrlərdən Abşeronun yaşıllıqlar diyarına çevrilməsi üçün bir sıra tədbirlər görmüşdür. Müstəqil Azərbaycanda ətraf mühitin və ekologiyanın mühafizəsi sahəsində dövlət siyasətinin əsası məhz Ulu Öndər Heydər Əliyevin Prezidentliyi dövründə formalaşmağa başlayıb, Bakı və Abşeronun yaşıllaşdırılmasına, pozulmuş ekoloji tarazlığın bərpasına, təbiətə vurulmuş yaraların sağalmasına daha böyük əzmkarlıqla səy göstərilib. Respublikamızda ekoloji problemlərin həll edilməsini daim diqqətdə saxlayan, xüsusilə yaşıllaşdırmaya böyük önəm verən Ulu Öndər Heydər Əliyevin 2001-ci il 23 may tarixli Fərmanı ilə ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadənin ayrı-ayrı istiqamətləri ilə məşğul olan və fəaliyyətlərində bir-birini təkrarlayan Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi, Dövlət Hidrometeorologiya Komitəsi və "Azərmeşə" İstehsalat Birliyi ləğv edilib və bunların bazasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılıb. Respublika Prezidentinin 2001-ci il 18 sentyabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının Eko-

logiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"si təsdiq edilib. Azərbaycana rəhbərlik etdiyi dövrdə ətraf mühitin mühafizəsi sahəsində 8 qanun qəbul etdi və hökumət səviyyəsində 30-dan artıq qərar təsdiq edildi. Azərbaycan dövləti tərəfindən həyata keçirilən yaşıllaşdırma, abadlaşdırma, ekologiya və ətraf mühitin qorunması sahəsində gördüyü böyük işlərlə yalnız fəxr etmək olar.

Heydər Əliyev Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Ölkədə ekoloji siyasətə göstərilən diqqət nəticəsində xalqın rifahında, insanların sağlamlığında da ciddi irəliləyişlər danılmaz faktdır. Azərbaycanda ətraf mühit məsələlərinə böyük əhəmiyyət verilməsi, o cümlədən irimiqyaslı ekoloji layihələrin həyata keçirilməsi ölkə vətəndaşlarına daha təmiz mühitdə yaşamağa imkan yaradır. Heydər Əliyevin təşəbbüsü ilə Kür-Bakı su kəmərinin tikintisinə başlanıldı. Onun fəaliyyəti dövründə ölkədə mövcud olan su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, su təchizatının inkişafı və dirçəlməsi ekoloji siyasətin tərkib hissələrindən olmuşdur. İlk olaraq birinci Kür su kəməri istifadəyə verildi. Regionun su təchizatını daha da yaxşılaşdırmaq və şəhər əhalisinin su ilə təchiz olunması ilə əlaqədar olaraq Ceyranbatan su qovşağında aparılmış yenidənqurma işləri də buna bir nümunədir. Digər bir qərar isə ikinci Kür su kəmərinin tikintisi oldu. Bundan əlavə, Ulu Öndər Heydər Əliyevin qərarı nəticəsində 2002-ci ildə Oğuz və Qəbələ rayonları ərazisindəki zəngin su ehtiyatlarının paytaxta gətirilməsi üçün Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsi qərara alındı. Bu da öz növbəsində Bakının və Abşeron yarımadasının digər yaşayış məntəqələrinin əhalisinin keyfiyyətli içməli su ilə təmin olunmasına şərait yaratdı.

Ulu Öndər Heydər Əliyevin tibb sahəsinə xüsusi diqqət və qayğısı sayəsində müstəqillik dövründə ölkəmizdə səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması sahəsində əhəmiyyətli nailiyyətlər əldə etmək mümkün oldu. Onun bilavasitə rəhbərliyi ilə ölkənin səhiyyə sistemində ardıcıl və məqsədyönlü işlər görüldü, islahatlar aparıldı. Bu işdə ilk növbədə səhiyyənin hüquqi–normativ bazasının təkmilləşdirilməsi və dünya standartları səviyyəsinə qaldırılması daim diqqət mərkəzində saxlanılırdı. Həmin məqsədlə ölkəmizdə səhiyyənin qanunvericilik bazasını gücləndirən bir sıra qanunlar qəbul edildi. Həkimlərə, bütün səhiyyə işçilərinə xüsusi diqqət və qayğı ilə yanaşan Ümummilli Lider, ilk növbədə səhiyyə ocaqlarının, tibb elminin və tibb təhsilinin maddi-texniki bazasının gücləndirilməsini ön plana çəkirdi. 1970–ci illərdə bir sıra bölgələrdə tibb müəssisələri yararsız binalarda yerləşirdi. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkədə bir-birinin ardınca yeni xəstəxana və poliklinikaların, yeni tibb müəssisələrinin, Elmi-Tədqiqat İnstitutlarının, müalicə-diaqnostika mərkəzlərinin yaradılması Azərbaycanda səhiyyənin, o cümlədən tibb elmi və tibb təhsilinin inkişafına güclü təkan verdi. Bəzi səhiyyə ocaqları ən müasir avadanlıq və cihazlarla təchiz edildi. O illərdə bu sahədə ən diqqətəlayiq hadisələr, Azərbaycan Tibb Universitetinin yeni korpusunun istifadəyə verilməsi və müasir dünya standartlarına cavab verən Mərkəzi Klinik Xəstəxananın açılışı isə Ümummilli Liderin Azərbaycan xalqının sağlamlığına göstərdiyi qayğının ən parlaq təcəssümü oldu. Heydər Əliyev əhalinin sağlamlığı ilə bağlı daha bir məsələyə—profilaktika və sağlamlaşdırıcı tədbirlərə, kurort müalicəsinin təşkilinə də böyük əhəmiyyət verirdi.

Beləliklə, tərəddüd etmədən deyə bilərik ki, ölkəmizin ictimai həyatının bütün sahələrində olduğu kimi, səhiyyə sahəsində də yeni iqtisadi sistemə uyğun olaraq, həyata keçirilən islahatlar, inkişaf və tərəqqi Heydər Əliyevin adı ilə bağlıdır. Səhiyyəmizin inkişafı yolunda Ümummilli Liderin xalqının hər bir nümayəndəsinin gələcəyini düşünərək, gördüyü işlər öz dəyəri, böyüklüyü ilə əvəzsizdir.